**AzMİU-da "COP29: Dayanıqlı şəhərsalma və ekoloji çağırışlar" forumu keçirilir**

Oktyabrın 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "COP29: Dayanıqlı şəhərsalma və ekoloji çağırışlar" forumunun açılışı olub.

AZƏRTAC xəbər verir ki, beş gün davam edəcək forum çərçivəsində "İkinci həyat – dizaynerlərin gözü ilə" adlı tulantılardan hazırlanmış maketlərin sərgisi, panel müzakirələri, vörkşoplar, rəsm müsabiqəsi, təmizlik və ağacəkmə aksiyaları təşkil olunacaq.

Forumun açılış mərasimində AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, COP29-un Təşkilat Komitəsinin üzvlü, Milli Məclisin deputatı Sevinc Fətəliyeva və Xarici İşlər Nazirliyinin idarə rəisinin müavini, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi komandasının həmrəhbəri Jalə İbrahimova iştirak ediblər.

Tədbirdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunan forumun ilk günündə "Müasir şəhərsalmada dayanıqlılıq amilləri", "Enerjidən qeyri-səmərəli istifadə iqlim dəyişikliklərinin səbəbi kimi" və "Su ehtiyatlarından istifadə və ekoloji dayanıqlılıq problemləri" mövzuları ətrafında panel müzakirələri təşkil olunub.

Forumun ikinci günündə tullantılardan istifadə etməklə maket hazırlığı, dibçəklər üzərində Dayanıqlı İnkişaf Məqsədlərinə həsr olunmuş rəsmlər, davamlı şəhər inkişafı barədə tələbələrin təklifləri, yeni layihə ideyalarının müzakirəsi həyata keçiriləcək.

Forumun üç və dördüncü günləri təmizlik və ağacəkmə aksiyaları təşkil olunacaq.

Sonuncu gündə isə forumun bağlanışı mərasimi keçiriləcək və fərqlənən iştirakçılar Təşkilat Komitəsi tərəfindən mükafatlandırılacaq.

**AZƏRTAC**
**2024, 21 oktyabr**